

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "QARABAĞ RUZİGARLARI"NDAN "GECƏ XƏYALLARI"NA

**Rəfail Tağızadə müasir poeziyamızda öz fərdi üslubu, dəst-xətti ilə seçilən şairlərimizdən biridir. Bu gün onun şeirləri barədə ədəbi tənqidin ciddi fikir söyləməsi çox vacibdir, çünki Rəfail artıq altmış yaşına doğru yol alır və belə bir istedadlı şairin şeirləri barədə söz deməmək biganəlik sindromu yaradır. O şair ki, poetik inkişafı göz qabağındadır.**

"Qapı", "Qarabağ ruzgarları", "Gecə xəyalları"- Rəfailin 2003, 2009 və 2013-cü illərdə çap olunan kitablarıdır və çox maraqlıdır ki, hər üç kitaba mərhum deməyə dilim gəlmədiyi Adil Mirseyid ön söz yazıb. O Adil Mirseyid ki, müasir Azərbaycan poeziyasında avanqard bir şair kimi tanınırdı və etiraf etmək lazımdır ki, Adil Mirseyid şeirimidə modern istiqamətin aparıcı nümayəndələrindən biri idi. Şeirimizdə bir çox şablonların, stereotip düşüncənin qırılmasında, novator meyllərin inkişafında Adilin də öz rolu var. Rəfailin şeirlərində Adilin də müəüüən təsiri hiss olunur və bu qətiyyən yamsılamaq, Adil kimi düşünmək məqamına gəlmir. Adil daha çox duyğuların rəsini, dünyanı, insan ruhunun intibalarını poetik lövhələrə çevirmək yolunu tuturdu, təbiətə modernist rəssam gözüylə baxıdı, Rəfaildə isə hissi-emosional məqamlar yaşanılan hisslər kimi diqqəti cəlb edir. Adildə publisistik ahəng yox dərəcəsindədir, Rəfail isə bir çox şeirlərini məhz publisistik pafosla ifadə edir. Təsir məsələsinə gəldikdə isə Rəfail bəzən Adilin işlətdiyi priyomlara müraciət edir, predmetə, əşyaya, təbiət hadisələrinə münasibətdə akvarel cizgiləriylə işləyir. O da gözlənilməz təşbihlərə, metaforalara üz tutur.

Rəfail Tağızadə əslən qarabağlıdır və onun şeirlərində Qarabağ nisgili duyulur, Qarabağ ruzgarları əsir. Adil Mirseyid yazırdı ki: "Rəfail Tağızadənin şeirləri reallığı, yəni Qarağab reallığını fotoqrafik bir dəqiqliklə əks etdirir. Bəzən rakurslar dəyişir, işıq-kölgə effektləri bir-birini əvəzləyir, amma bu ağ-qara rəsmlərə bənzəyən şeirlərin hamısının üzərində qan izi var. Bu gün şəhid qardaşlarımızın, atalarımızın, günahsız analarımızın, bacılarımızın qanıdı.

Bu sənin, mənim qanımdı.

Bu qan Rəfail Tağızadənin qanıdı.

Rəfail Tağızadə bütün gerçək şairlər kimi şeirlərini öz ürəyinin qanıyla yazır".

Bu gün də, o məlum hadisələrin başlanğıcında da Qarabağ mövzusu şeirimizin aparıcı xəttini təşkil edib. Nə qədər ki, torpaqlarımız işğal altındadır, Qarabağ həsrəti də bitməyəcək. Şuşanın, Ağdamın, Cəbrayılın, Kəlbəcərin, Laçının, Qubadlının, Füzulinin, Zəngilanın qaçqın düşən hər bir sakini o həsrətin bitəcəyi ümidilə yaşayır. Rəfail də bu həsrəti, bu nisgili yaşayanlardan biridir və əlbəttə, onun həsrəti poeziynın həsrətinə çevrilir.

**Can atıram çiçəyinə,**
**əlim çatmır ətəyinə,**
**necə qonum pətəyinə,**
**Q A R A B A Ğ.**

**Çaylarından sular axmır,**
**şimşək daha elə çaxmır,**
**ruhlar məni tək buraxmır,**
**Q A R A B A Ğ.**

**Bu yerlərin təhnəsi boş,**
**Cıdır düzü, səhnəsi boş,**
**dədə-baba məhləsi boş,**
**Q A R A B A Ğ.**

Rəfailin "Qarabağ bayatıları" silsiləsini həyəcansız oxumaq olmur. Şeir öncə subyektiv duyğulardan yaranır, şairin iç dünyasından gələn səsləri sözlərə, sözləri şeirə çevirir, sonra o şeirə dönən duyğular sərhədi aşır, bizim qəlbimizə də yol tapır. Qarabağ həsrəti təkcə Rəfailin həsrəti olub qalmır və bəlkə bu həsrəti ondan da dərdlilər yaşayır . Amma fərq burasındadır ki, Rəfail bu həsrəti hamımızın adından söyləyir.

**A Vətən torpağı,**
**a Vətən dağı,**
**çəkilib sinəmə**
**bir Vətən dağı.**

**Gözümdə son baxış**
**o Vətən bağı,**
**içimdə oxunan**
**o Vətən ağı:**

**Elimin qara bağı,**
**qolumuq qara bağı,**
**bu qədər dərd içində**
**dərdimin Qarabağı.**

"Dərdimin Qarabağı"-məncə bu ifadə Qarabağ həsrətini çox dəqiq əks etdirir və DƏRD təkcə şəxsi yox, həm də ictimailəşmiş dərddir. DƏRDİN QARABAĞI Rəfali döyüş səngərlərindən, uğrunda vuruşduğu torpaqlardan sərhəd kəndlərinə, şəhid yurddaşlarımızın məzarlarına-Şəhidlər xiyabanına xatırlatmaq istəyirəm. "Qarabağ qazisi haqqında ballada" və "Çadır şəhərciyi" poemaları onun Qarabağ mövzusunda yazdığı şeirlərin davamıdır və Rəfail hər iki poemada canlı lövhələr təqdim edir. Təsvir etdiyi səhnələr son dərəcə təsirlidir və bu səhnələr insan ürəyində doğulan dərdlərin təcəssümüdür:

**Çadır məktəbləri, çadır məktəbi,**
**qaçqın uşaqları, çadır məktəbi,**
**birinci, beşinci çadır məktəbi.**
**Şagirdlər utanır adından indi,**
**utanır qohumdan, yadından indi.**
**Nə məktəb şəkli var, nə ev şəkli var,**
**gizlincə baxdığı fotoalbomda.**
**Kimə nə söyləsin, kimə nə desin,**
**Nədir bu körpənin günahı indi.**
**Nə şəhər tanıyır, nə kənd tanıyır,**
**Qarabağ tanıyır, Vətən tanıyır?**
**Vaqonda doğulub, Vətənsiz olub,**
**nə bilir Qarabağ, nə bilir nədi.**

Rəfailin Rəsul Rza mükafatına layiq görülmüş "Qarabağ qazisi haqqında ballada" poeması isə yanaşır. Əgər "Qarabağ ruzgarları"nda mövzudan asılı olaraq bəzən publisistik ahəng nəzərə çarpırdısa, "Gecə xəyalları"nda bundan əsər-əlamət görmürük, artıq metaforik düşüncə tərzi, poetik detallarla, bədii təsvir vasitələri ilə oxucunu cəlb etmək daha çox diqqəti çəkir. Onun şeirləri mənə ruhun çırpıntılarını xatırladır. Ormanda bir yaşıl ağac bir cəllad əlində can verir və bu faciə bir ağacın faciəsi deyil, ürəkləri yarpaqtək çırpınan insanları xatırladır ("Ormanda bir yaşıl ağac"). Təbiətlə təmas təkcə gözəllikləri rəssam duyğusu ilə poetik sözün ixtiyarına verməklə bitmir, insan ürəyi ilə təbiət arasındakı harmoniyanı da canlandırır. Gecə və onun sənsizliyi, yağış, qara bulud, tənha ağac, ilin fəsilləri Rəfailin şeirlərində məhz bu mərama xidmət edir. Məsələn, payız silsiləli şeirlərin hər biri ürəkdəki payız duyğularının əks-sədasıdır.

**Yarpaqlar tökülür payız axşamı**
**bahara üçaylıq bəyaz qış qalıb,**
**əlimdə qoxusuz payız gülləri,**
**könlümü bəmbəyaz sevdalar alıb.**

qədər bir yola çəkib aparır. "Hələ də Xocalı qan rəngindədi" - "İndi xəyallarda gəzir Xocalı" - DƏRDİN QARABAĞI "Bəşərin sonuncu matəm gecəsini" anır, sərhəd kəndlərini dolaşır, "Dayan, giriş qadağandır!" maniəsi ilə üzləşir. "Vaqonun altından asılan beşik" isə qaçqınlığın törətdiyi tanış mənzərədir:

**Vaqonun altında böyüyən uşaq,**
**mənzilə çatmayan vaqon nədi ki,**
**sən ondan sallaşıb hələ yatırsan.**
**Gedə bilmədiyin yurd yerinə sən**
**şirin röyalarda gedib çatırsan.**

Rəfail doğrudan da A.Mirseyidin söylədiyi kimi Qarabağ reallıqlarını fotoqrafik bir dəqiqliklə əks etdirir, məsələn, onun "Qaçqın uşağı" şeirini o mövzuda çəkilən hər hansı bir fotonun ya rəsmin qarşısında asmaq olar:

**Müəllimi didərgin,**
**məktəbi çadırdan,**
**təqdimatı-**
**adından, soy adından qabaq-**
**Qaçqın uşağı.**
**gözü özündən böyük,**
**dərdi çiynində ağır yük,**
**taleyi müəmmalı bir clxuq,**
**ürəyi oyuq-oyuq-**
**Qaçqın uşağı.**

Mən burada Rəfail Tağızadənin şeirləri barədə iki müəllifin qısaca (atüstü) söylədiyi fikirləri xatırlatmaq istərdim. Mərhum şair Famil Mehdi: "Əzizim Rəfail! Sən dərdini poeziyaya çevirənlərdənsən. Ona görə də mənə xüsusilə yaxınsan, doğmasan Sən bir Qarabağ şairi kimi bu faciənin aradan qaldırılmasının yollarını axtarırsan. Əsas yol isə silaha sarılmaqdır". Vaqif Bəhmənli: " Rəfail Tağızadə itirilmiş Qarabağın, boş qalan yurdların ağrısını obrazlı şəkildə əks etdirən yeganə şair kimi gözümün önünə gəldi. Onun yaradıcılığında Qarabağın bu günkü halı məharətli şəkildə ifadəsini tapıb. Rəfail Qarabağ dərdinə ədəbi pasport verdi". Və əlavə olaraq vaxtilə bu sətirlərin müəllifi də yazmışdı: "Rəfail Tağızadənin heç bir əsərinin adı "Qarabağnamə" deyil, ancaq onun şeir və poemalarını mən belə adlandırdım. Ədəbiyyat tarixində yeddi "Qarabağnamə"dən söz gedir. Həmin "Qarabağnamə"lərdə Qarabağın keçdiyi tarixi yol işıqlandırılır, müəlliflər mənbə və məxəzlərdən əldə etdikləri faktlar arasında, həm dlə müşahidələrinə görə Qarabağın salnaməsini yaradıblar. Rəfail Tağızadə isə bu günkü Qarabağın dərdli salnaməsini yazıb".Mən burada Rəfailin böyük ürək yanğısı ilə yazdığı iki poemasını da



iki yöndən diqqəti xüsusilə cəlb edir. Bu poema bizə Əli Kərimin assosiativ üslubda yazılmış "Heykəl və heykəlin qardaşı" poemasını xatırlatdı.Böyük Vətən müharibəsinin qəhrəmanı Cəmil Əhmədova həsr olunmuş həmin poemada Əli Kərim poetik təhkiyə vasitəsi ilə həm Cəmil, həm rnun anası, həm qardaşı, həm də ümumiyyətlə, müharibə haqqında dolğun təəssürat yaradırdı. Rəfailin poemasında da biz Qarabağ müharibəsi, onun doğurduğu acılıqlar, bu müharibədə ayağını itirmiş bir döyüşçü və onun keçirdiyi mənəvi əzablarla qarşılaşırıq:

**Mənim qazi qardaşım**
**həyətdə oturub**
**ud çalırmış kimi**
**kötük güdüllərini ovuşdurur:**
**sağ barmağım qaşınır,**
**sol ayağımın altı qaşınır,**
**ayağım atlanmır**
**yox dizimə duz yığılıb deyəsən...**
**Qucağına götürə bilmədiyi**
**o bircə gül körpəsinə baxır...**

Əlbəttə, "Qarabağ ruzgarları"nda toplanan şeirlər 2001-2007-ci illərdə qələmə alınıb, amma bu "ruzgarların" bir çoxu hələ də əsməkdədir və bu səbəbdən Rəfailin şeirləri öz aktuallığını itirmir. Təkcə aktuallığınımı? Elə bilirəm, gələcəkdə də bu şeirlər ötən illərin Qarabağ yaşantılarını əks etdirdiyi üçün unudulmayacaq, həmişə oxunacaq.

"Gecə xəyalları" isə Rəfailin təkcə bir mövzuya qapanıb qalmadığını, bir şair kimi poetik axtarışlarını əks etdirir və hiss olunur ki, o, həyatın, gerçəkliyin başqa-başqa olaylarına, çevrəsində baş verən hadisələrə, yaşadığı mühitin onda doğurduğu müxtəlif intibalara, təbiətə, onun gözəlliklərinə, insan kədərinə-insan ağrısına həssaslıqla

Gecə obrazı Rəfailin şeirlərində daha çox diqqəti cəlb edir, adətən gecə obrazı romantik duyğuların inikası kimi yaranır, amma Rəfailin GECƏ obrazı DƏRD obrazı ilə paralel işlənir.

**Bu darıxan gecədə**
**nə dənizin dalğası,**
**nə də ki bir kölgə var**
**üzümə toxunası.**

**Bu gecə qonaq ay yox**
**mənimlə söhbətləşə,**
**bu lal-dinməz gecədə**
**dərdlərimiz dərdləşə.**

**Bu darıxan gecəni**
**qaranlığın qoynunda**
**səhərə daşıyıram**
**əllərimin içində.**

Rəfailin "Polşa şeirləri" və "Şopenin ürəyi" poeması Polşa səfərindən sonra qələmə alınıb və bu yazılarda o çalışır ki, fərqli bir mənzərə yaratsın. Öncə ilk dəfə gördüyü bir ölkənin, onun şəhərlərinin və təbiətinin məxsusi cizgilərini gözlərimiz qarşısında canlandırır, sonra Polşanın tarixən keçdiyi yolun bəzi məqamları xatırlanır (bu arada Bakının Qanlı 20 yanvarı ilə Solidarnost muzeyindəki "canlı tarix" arasında oxşarlıq da nəzərdən qaçmır). Və:

**...Varşava küçələri,**
**Varşava gecələri.**
**Şopenin musiqisi**
**al qanadlı mələk kimi**
**qanad açıb uçur, uçur...**
**Varşavada, Vyanada, Parisdə.**

**Bir qara piano var**
**dünyanın ortasında,**
**bir xəyal əyləşibdi**
**piano arxasında-**
**Şopenin xəyalı,**
**Başı bəlalı.**

Poemada Şopen və onun musiqi sehri haqqında poetik düşüncələr əsas yer tutur. "Şopenin musiqisini dinləyirəm ana yurdum Qarabağ düşür yada"-poemanın məntiqi sonluğu bu misra ilə bitir. Rəfail Tağızadə indi yaradıcılığının kamillik mərhələsini yaşayır. Təbii ki, onun poetik axtarışları davam edir. Həyata oricinal baxışı ilə seçilən bu şairə uğurlar arzulayaq!..